## Məktəblilərin asudə vaxtının səmərəli təşkili yolları

Təqdim olunmuş mövzunun araşdırılması,təhlil edilməsi və öyrənilməsi xüsusi diqqət tələb edir.Belə ki,məktəblilərin asudə vaxtinin səmərəli təşkili insanın bir şəxsiyyət kimi formalaşmasınada,onun dünyagörüşünün genişlənməsində,sosial inkşafinda mühüm amil sayilir.

Məktəblinin asudə vaxtinin səmərəli təşkilinin müxtəlif yolları vardır.Mühüm istiqamətlərdən biri gəzintilərin təşkil edilməsidir.Məsələn yaxşı bəzədilmiş şəhər,müxtəlif plakatlar,potrtetlər əhval ruhiyyəsini uşaqlar tərəfindən sevinclə qarşilanır və uzun müddət onların yadında qalır.Teatr,müxtəlif uşaq oyunlari,yarışlar uşaqlarda sevinc hissləri oyadir,onlarda vətənpərvərlik və öz xalqına məhəbbəti artırır.

Asudə vaxtın təşkilində fəal istirahətin də rolu böyükdür.Fiziki hərəkətlər,turizim səfərləri,idman oyunları şagirdləri cox sevindirir.Ona görə də həm müəllim həmdə valideynlər uşaqlar üçün müxtəlif gəzintilərin və səyahətlərin,idman oyunlarının və digər əyləncələrin təşkilinə çox çalışırlar.Ümumiyyətlə uşaqlar əyləncələrin müxtəlifliyini xüsusilə də bu əyləncələrin müxtəlif yerdə keçirilməsinə çox sevinirlər.Bu onların yaddaşında qalacaq xoş xatirələrə səbəb olur.Belə tədbirləri adətən isti günləri və məktəb tətili vaxtı təşkil etmək daha səmərli olur.Məktəblilər üçün kollektiv təşkil edilmiş tədbirlər məsələn oyunlar,teatra,muzeyə gəzinti təşkil etmək daha səmərəli olur.Onlarda kollektivliyə marağı artırır,kollektiv maraqlar şəxsi maraqlardan ön plana keçir.

Məktəblilərin asudə vaxtı dedikdə təkcə istirahət və bayram günlərini qeyd etmək düzgün olmazdi.Dərs günlərində də ev tapşırıqlarını hazırladıqdan sonra asudə vaxtdan istifadə düzgün qurulmalıdır.Məktəblilərin təmiz havada çox gəzməsinə,idman və hərəkətli oyunlarla məşğul olmasına daha çox fikir verilməlidir.

Asudə vaxtın təşkilində başqa maraqlı istiqamətlər də vardır.Məsələn foto şəkillərin çəkilməsi,aviamodellərin düzülməsi digər yaradıcı məşğələlər də çox vacib sayılır.Belə məşgələlərdə məktəblilərin əməyə münasibəti yüksəlir,intizam ön plana çəkilir və çox vacib əməli və həyat vərdişləri yaranır.Bəzi pedaqoqlar və valideynlər məktəblilərə əvvəlcədən hazırlaşmış tədbirə baxmağı kifayət sayırlar.Fikrimcə bu səhvdir.Çünki məktəbli bu və ya digər tədbirin hazırlığında özü iştirak edir və əmək sərf edirsə,bu onların formalaşmasında daha qiymətli iz